# Onlar Vətən uğrunda vuruşublar



**Orucov Vəzir Surxay oğlu**

26 dekabr 1956-cı ildə Tərtər rayonunun Xoruzlu kəndində anadan olub. 1974-cü ildə Bakı Yüngül Sənaye Texnikumuna daxil olub və bir ildən sonra hərbu xidmətə çağırılıb. 1977-ci ildə ordudan tərxis olunduqdan sonra təhsilini davam etdirib. Əmək fəaliyyətinə Tərtər Çörək Zavodunda başlayıb. 1984-cü ildə Rusiyanın Arxangelsk vilayətinə köçüb. 1992-ci ildə doğma torpağında gedən döyüşlərdə iştirak etmək üçün Vətənə dönüb. 1992-ci il mayın 4-də Tərtər özünümüdafiə batalyonuna daxil olub. Batalyonun kəşfiyyat bölməsinin komandiri kimi bütün döyüş əməliyyatlarında iştirak edib. Dəfələrlə düşmən arxasına keçərək, onların canlı qüvvəsi, texnikası barədə dəqiq məlumatlar gətirib.

Marquşevan, Levonarx, Madagiz, Akop Komari, Drombon, Çıldıran, Vaqauz kəndləri, Sərsəng su anbarı uğrunda gedən döyüşlərdə şəxsi şücaət göstərib. 1 sentyabr 1992-ci ildə Çıldıran kəndi yaxınlığında vuruşda ağır yaralanıb, müalicədən sonra yenidən cəbhəyə qayıdıb.

22 mart 1993-cü ildə Ağdərə yaxınlığında Qlobus yüksəkliyi uğrunda gedən döyüşdə snayper gülləsindən həlak olub.

Evli idi. Bir oğlu qalıb.

Azərbaycan Respublikası Prezidentinin 27 mart 1993-cü il tarixli 495 saylı fərmanı ilə ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adı verilib.

Bakı şəhərində Şəhidlər xiyabanında dəfn edilib.



**Ocaqverdiyev Sərxan Surxay oğlu**

16 iyul 1967-ci ildə Goranboy rayonunun Səfikürd kəndində anadan olub. 1985-ci ildə Tatarlı kənd orta məktəbini bitirib. Sonra Xabarovsk şəhərində hərbi xidmətdə olub. 1988-ci ildə əsgəri borcunu yerinə yetirərək Vətənə dönüb və Gəncə Maşınqayırma Texnikumuna daxil olub. 1991-ci ildə təhsilini uğurla başa vurub, Gəncə Maşınqayırma Zavodunda əmək fəaliyyətinə başlayıb.

10 yanvar 1992-ci ildə Goranboy özünümüdafiə batalyonuna yazılıb, Şəfəq, Zeyvə, Tap Qaraqoyunlu kəndlərinin müdafiəsi zamanı qanlı döyüşlərdə iştirak edib. Az müddətdə düşmənin xeyli canlı qüvvəsini məhv edərək, əsl Azərbaycan əsgəri kimi yüksək döyüş nümunəsi göstərib.

5 may 1992-ci ildə növbəti dəfə Talış kəndinə hücuma keçərkən ermənilərlə qeyri-bərabər döyüşdə qəhrəmancasına həlak olub.

Subay idi.

Azərbaycan Respublikası Prezidentinin 7 iyun 1992-ci il tarixli 833 saylı fərmanı ilə ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adı verilib.

Səfikürd kəndində dəfn edilib. Təhsil aldığı Tatarlı kənd tam orta məktəbi onun adını daşıyır. Goranboy rayonunda büstü qoyulub.



**Polovinko Ruslan Aleksandroviç**

21 oktyabr 1969-cu ildə Xarkov vilayətinin Zmiyev şəhərində anadan olub. 1987-ci ildə Sızran Ali Hərbi Təyyarəçilər Məktəbinə daxil olub. Məktəbi müvəffəqiyyətlə bitirdikdən sonra 1991-ci ildə Naxçıvan şəhərində yerləşən hərbi hissəyə göndərilib. Azərbaycanda Hərbi Hava Qüvvələri yaradılanda bakı Əlahiddə Vertolyot Eskadrilyasında təyyarəçi-operator vəzifəsinə təyin olunub.

1992-ci ildən başlayaraq erməni hərbi birləşmələrinə qarşı keçirilən əməliyyatlarda fəal iştirak edib.

Qubadlı, Laçın, Ağdərə uğrunda gedən döyüşlərdə düşmənə sarsıdıcı zərbələr endirib. 1992-ci ildə Kasapet yüksəkliyində özünə mövqe seçən düşmən döyüşçülərimizi çətin vəziyyətə salanda havaya qalxan səma qartalları Mİ-24 vertolyotunda üç dəfə təhlükəli zonaya uçuş keçirərək düşmənin mövqelərini darmadağın edib. Dördüncü uçuşda vertolyot raket atəşinə tutulub. Bu, onların son uçuşu olub, vertolyotun bütün heyəti həlak olub.

Azərbaycan Respublikası Prezidentinin 14 sentyabr 1992-ci il tarixli 204 saylı fərmanı ilə ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adı verilib.

Doğulduğu Zmiyev şəhərində dəfn edilib.



**Paşayev Baxşeyiş Xanəhməd oğlu**

1 may 1936-cı ildə Ağdam rayonunun Əhmədavar kəndində anadan olub. Yeddinci sinfi bitirdikdən sonra Ağdam Kənd Təsərrüfatı Texnikumuna daxil olub. 1954-cü ildə texnikumu bitirərək Ağdam Arıçılıq Sovxozunda mexanizator işləməyə başlayıb. 1965-ci ildən isə fəaliyyətini sürücü kimi davam etdirib. 1988-ci ildə xalq hərəkatına qoşulub. Erməni basqınının qarşısının alınmasında, ayrı-ayrı kəndlərə ərzaq çatdırılmasında fəal iştirak edib. "Qarabağ müdafiə şahinləri" dəstəsinin ən fəal döyüşçüsü, mahir atıcı və gözəl kəşfiyyatçı olub. Dəfələrlə Aranzəmin, Naxçıvanik, Xanabad kəndlərinə kəşfiyyata gedib, onun məlumatları əsasında aparılan hücum əməliyyatları uğurla nəticələnib. 10 aprel 1992-ci ildə Şuşakənddə ermənilərin çox mühüm döyüş nöqtələrini sıradan çıxartmaq üçün vertolyotçularımıza bələdçilik edib. Xocalı faciəsi zamanı əhalinin çıxarılmasında böyük fədakarlıq göstərib.

1992-ci il iyulun 12-də düşmən Xanabad kəndinə hücuma keçəndə onun dəstəsi cavab olaraq ermənilərin 7 postunu ələ keçirib. Bu döyüşdə qəhrəmancasına həlak olub.

Ailəli idi. Doqquz övladı var.

Azərbaycan Respublikası Prezidentinin 7 dekabr 1992-ci il tarixli 350 saylı fərmanı ilə ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adı verilib.

Ağdam rayonunda Şəhidlər xiyabanında dəfn edilib.



**Rəhimov Koroğlu İsmayıl oğlu**

31 oktyabr 1953-cü ildə Oğuz rayonunun Xaçmaz kəndində anadan olub. 1961-ci ildə ailəsi ilə birlikdə Qərbi Azərbaycanın Zəngibasar mahalının Sarıcalar kəndinə köçüb. Orta təhsilini Həbil kənd orta məktəbində alıb. 1969-cu ildə Azərbaycan Neft və Kimya İnstitutunun (indiki ADNSU) avtomexanika fakültəsinə daxil olub. 1972-ci ildə ordu sıralarına çağırılıb. 1974-cü ildə hərbi xidmətini başa vuraraq təhsilini tamamlayıb.

Əmək fəaliyyətinə Bakı Məişət Kondisionerləri Zavodunda başlayıb. 1992-ci il martın 17-də könüllü olaraq Milli Ordu sıralarına yazılıb. 1992-ci il aprelin 30-da 2-ci motoatıcı bölüyün komandiri təyin olunub.

İyunun 13-də Goranboy ərazisində Buzluq, Çartaz və Erkəc kəndlərinin azad edilməsində xüsusilə fərqlənib. Bu uğurdan ruhlanan döyüşçülər ertəsi gün daha mühüm obyektləri, Başkənd, Madagiz və Gülüstan kəndlərini də düşmən işğalından azad ediblər.

1992-ci il iyulun 3-də Ağdərə istiqamətində 3-cü sovxozun ərazisinin düşməndən təmizlənməsi uğrunda gedən qanlı döyüşdə qəhrəmanlıqla həlak olub.

Ailəli idi. Üç övladı qalıb.

Azərbaycan Respublikası Prezidentinin 16 sentyabr 1994-cü il tarixli 203 saylı fərmanı ilə ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adı verilib.

Bakı şəhərində Şəhidlər xiyabanında dəfn edilib.

Paytaxtın küçələrindən biri və Oğuz rayonunun Xaçmaz kəndindəki uşaq bağçası onun adını daşıyır.



**Rüstəmov Füzuli Salah oğlu**

25 dekabr 1965-ci ildə Tərtər rayonunun Hüsənli kəndində anadan olub. Ata-anasını erkən itirib. 1978-ci ildən Xocalıda, babası Kərim kişinin himayəsində yaşayıb. Buradakı səkkizillik məktəbi bitirib. 2 saylı Xocalı üzümçülük sovxozunda, 1990-cı ildən isə toxuculuq fabrikində işləyib.

Dağlıq Qarabağ hadisələri başlayan ilk günlərdən silah götürərək torpaqlarımızın müdafiəsinə qalxıb. 1990-cı ildə ermənilərin Xankəndinə gedişinin qarşısını almaq üçün Xocalı aeroportunu partlatmaq lazım gəlirdi. Əməliyyatı həyata keçirmək üçün 4 nəfərdən ibarət qrup ayrılır. Qrupun tərkibində F.Rüstəmov da var idi. Əməliyyat uğurla başa çatdırılır.

Füzuli, Xocalı özünümüdafiə dəstəsi yaradılanda əvvəlcə orada, sonra isə hərbi batalyonda xidmətini davam etdirib. Azərbaycanın Milli Qəhrəmanı A.Quliyevin yaralı vəziyyətdə döyüş meydanından çıxarılması onun hünəri sayəsində mümkün olub. Faciə zamanı üç dəfə Xocalıya girərək qadın, uşaq və yaralıları təhlükəsiz zonaya çıxarıb. Son anda özü düşmən gülləsinə tuş gəlib.

Subay idi.

Azərbaycan Respublikası Prezidentinin 25 fevral 1997-ci il tarixli 533 saylı fərmanı ilə ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adı verilib.

Tərtər rayonunun Hüsənli kəndində dəfn edilib.



**Rüstəmov Hidayət Eldar oğlu**

19 avqust 1970-ci ildə Ağdam rayonunun Xıdırlı kəndində anadan olub. Burada səkkizinci sinfi bitirdikdən sonra təhsilini Ağdam şəhərindəki 50 nömrəli texniki-peşə məktəbində davam etdirib. 1988-1990-cı illərdə hərbi xidmətdə olub.

1991-ci ildə Ağdam Rayon Daxili İşlər Şöbəsinin post-patrul alayına qəbul edilib. İlk günlərdən bir polis çavuşu kimi torpaqlarımızın bütövlüyü uğrunda gedən döyüşlərdə fəal iştirak edib, döyüş rəşadətləri göstərib.

23 dekabr 1991-ci ildə erməni yaraqlıları Meşəli kəndinə növbəti dəfə hücum edərək kəndi mühasirəyə alanda dinc əhalini xilas etmək üçün Ağdam rayon DİŞ-nin əməkdaşları döyüşə giriblər. Cəsur polis çavuşu boş evlərin birində özünə mövqe seçib və qorxu bilmədən, yaxınlaşan düşmənə gözlənilməz zərbələr endirib. Lakin erməni yaraqlıları onun qurduğu istehkamı yarıblar. Quldurlar cəsur döyüşçünün təslim olmadığını görüb evə od vurublar. Son damla qanınadək vuruşub və qəhrəmancasına həlak olub.

Subay idi.

Azərbaycan Respublikası Prezidentinin 8 oktyabr 1992-ci il tarixli 264 saylı fərmanı ilə ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adı verilib.

Ağdamda Şəhidlər xiyabanında dəfn edilib.



**Rüstəmov Məzahir İzzət oğlu**

2 mart 1960-cı ildə Bakı şəhərində anadan olub. 1977-ci ildə Nizami rayonundakı 32 nömrəli orta məktəbi əla qiymətlərlə bitirib. Bir müddət Bakı Lampa Zavodunda fəhlə işləyib. 1983-cü ildə BDU-nun tarix fakültəsini bitirdikdən sonra Xətai rayonundakı 171 nömrəli orta məktəbdə, 1986-cı ildə Azərbaycan İnşaat Mühəndisləri İnstitutunun fəlsəfə kafedrasında çalışmağa başlayıb.

1991-ci il martın 5-də Dövlət Mətbuat Komitəsində aparıcı mütəxəssis kimi fəaliyyətə başlayıb. 1992-ci il martın 23-də könüllü olaraq Milli Orduya yazılıb, Şınıx bölgəsinin o zamankı mərkəzi olan doğma kəndi Düzrəsullu kəndində qərar tutub, vzvod komandiri vəzifəsinə təyin edilib. Sonra isə rota komandirinin müavini işləyib.

1992-ci il avqustun 6-da erməni quldurları xeyli canlı qüvvə və hərbi texnika ilə qəfildən Mutudərə kəndinə hücuma keçib. Məzahir öz cəsur döyüşçüləri ilə kəndin müdafiəsinə qalxıb. Onlar dinc əhalinin kənddən çıxmasına şərait yaradıblar. Son nəfəsinə qədər döyüşərək qəhrəmancasına həlak olur.

Ailəli idi. Bir qızı qalıb.

Azərbaycan Respublikası Prezidentinin 5 fevral 1993-cü il tarixli 457 saylı fərmanı ilə ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adı verilib.

Bakı şəhərində Şəhidlər xiyabanında dəfn edilib.

Oxuduğu 32 nömrəli tam orta məktəb, Əhmədli qəsəbəsindəki küçələrdən biri onun adını daşıyır. Yaşadığı binaya xatirə lövhəsi vurulub, Gədəbəy rayonunda tuncdan abidəsi ucaldılıb.



**Rzayev Canbulaq Yaqub oğlu**

1968-ci il fevralın 26-da Ağdam rayonunun Çuxurməhlə kəndində anadan olub. Əhmədavar kənd orta məktəbinin səkkizinci sinfini bitirdikdən sonra bir müddət kolxozda işləyib. 1988-ci ildə ordu sıralarına çağırılıb. Hərbi xidmətini raket qoşunları hissəsində keçib.

Ölkəmiz həyəcanlı günlər yaşamağa başlayanda Xramort, Xanabad, Əsgəran, Qarakənd, Gülablı kəndləri uğrunda gedən döyüşlərdə rəşadətlə vuruşub.

1992-ci il fevralın 26-da ermənilər Xocalıya soxularaq rus silahlı birləşmələrinin köməyilə şəhərdə qırğın törədəndə tankına oturaraq Qaraqaya kəndi tərəfə üz tutub. Xocalıdan çıxan əhalinin xeyli hissəsi bu kəndə sığınmışdı.

Dalbadal iki sərrast atəş açmaqla düşmən mövqeyini bir göz qırpımında darmadağın edib. Bunu görən döyüşçülərimiz kənddə sığınacaq tapmış qız-gəlinləri oradan çıxarıblar. Az keçməmiş ermənilər yenidən Qaraqayanı hədəfə alıblar. Cəsur komandir düşməni yenə cavab atəşilə qarşılayıb. Bu, onun son döyüşü olub. Bu döyüşdə şəhidlik zirvəsinə ucalıb.

Evli idi. İki oğlu qalıb.

Azərbaycan Respublikası Prezidentinin 7 iyun 1992-ci il tarixli 833 saylı fərmanı ilə ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adı verilib.

Məzarı düşmən tapdağında olan Ağdam şəhərində Şəhidlər xiyabanındadır.



**Rzayev Qasım Qara oğlu**

5 may 1970-ci ildə Tovuz rayonunun Əlibəyli kəndində anadan olub. 1987-ci ildə orta məktəbi bitirdikdən sonra sürücü ixtisasına yiyələnib. 1988-1990-cı illərdə hərbi xidmətdə olub. Könüllü özünümüdafiə dəstəsinə yazılaraq erməni quldurlarına qarşı döyüşə girib. Milli Ordumuzun ilk əsgərlərindən biri kimi Muncuqlu, Koxa-Nəbi, Ağdam, Əlibəyli, Hacallı kəndlərinin müdafiəsində mərdliklə vuruşub.

1992-ci il fevralın 11-də ermənilərin "Qan çanağı" deyilən tərəfdən hücumu gözləniləndə bir dəstə döyüşçü ilə həmin yerə üz tutub. Düşmənin həmləsi dəf edilib. Ermənilərin bir PDM-i və onlarla əsgəri məhv edilib. 14 may 1992-ci ildə düşmən ağır texnika ilə Tovuzun sərhəd kəndlərinə hücuma keçəndə özünü hadisə yerinə yetirib. Güllə yağışı altında qurğunu mərmi ilə dolduraraq bir-birinin ardınca 20 raket atıb. Çox keçmədən ermənilər yenidən top atəşinə başlayıblar. Mərmilərdən biri maşının düz üstünə düşüb. Ömrünün 22-ci baharında əbədiyyətə qovuşub.

Evli idi.

Azərbaycan Respublikası Prezidentinin 5 fevral 1993-cü il tarixli 457 saylı fərmanı ilə ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adı verilib.

Əlibəyli kənd qəbiristanlığında dəfn edilib.

Hacallı kənd orta məktəbi onun adını daşıyır.

*Məlumatların hazırlanmasında "Heydər Əliyev və Azərbaycanın milli qəhrəmanları. Müqəddəs amal" kitabından istifadə olunub.*